# HƏQİQƏT GÜNƏŞİ

**İMAM XOMEYNİ HƏZRƏTLƏRİNİN HƏYATINA QISA BİR BAXIŞ**



# HƏQİQƏT GÜNƏŞİ

## İMAM XOMEYNİ HƏZRƏTLƏRİNİN HƏYATINA QISA BİR BAXIŞ

## BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Əlbəttə, Həzrət İmam Xomeyni rəhmətullahın şəxsiyyətini, Onun yüksək həyat mərhələlərini bir məqalə və ya kitabda işıqlandırmaq mümkün deyildir. Lakin o Həzrətin nurani siması ilə qısa tanışlıq üçün hazırlanan bu kitabçada ilahi şəxsiyyətin fərdi xüsusiyyətlərindən əlavə, uşaqlıq illərindən vəfatınadək baş verən mühüm hadisələrin sərlövhəsi də qısa şəkildə xatırlanmışdır.

## UŞAQLIQ VƏ CAVANLIQ İLLƏRİ

Həzrət İmam Xomeyni (r) Hicri-qəməri tarixi ilə 1320-ci il Cəmadiyəs-sani ayının 20-i, Hicri-şəmsi ilə 1281-ci il Şəhrivər ayının 30-cu və Miladi tarixi ilə 1902-ci il sentyabr ayının 24-də alim, mühacir və mücahid ailəsində, özü də Həzrət Fatimeti-Zəhra (s.ə)-a mənsub olan pak bir sülalədə göz açmışdır. Valideyinləri, dünyaya yenicə qədəm qoymuş bu mübarək mövludun adını Ruhullah qoydular. Onun hörmətli atası Ayətullah Seyyid Mustafa Musəvi zamanəsinin böyük alimlərindən hesab olunur və həmin məntəqədə xalqa rəhbərlik vəzifəsini üzərinə götürmüşdü. Həzrət Ayətullah Seyyid Mustafa Musəvi son dərəcə zalım və xain olan yerli hökumətlə mübarizə apardığına görə, nəticədə 47 yaşında zülmkar rejimin məmurları tərəfindən Ərak-Xomeyn yolunda qəfildən güllələndi və müqəddəs şəhidlik məqamına nail oldu. Bu faciə Rudullah beş aylıq olarkən baş vermişdi. Buna görə də onun təlim-tərbiyə, sərpərəstlik və himayəçiliyini möminə anası, həmçinin şucaətli və mübariz qadın olan bibisi öz

üzərinə götürdü. Amma nisgilli körpə hələ 15 yaşına çatmamış bu iki meriban qadının qayğısından da məhrum oldu. Bununla da İmam Xomeyni (r) körpəlikdən yetimlik qəm-qüssəsinin acı körpəlikləri və şəhadət məfhumu ilə yaxından tanış oldu.

Həzrət İmam Xomeyni uşaqlıq çağlarında öz yüksək istedadı sayəsində elm və mərifət kəsb etməyə başlayır və hələ uşaq ikən Qurani-məcidin təcvid qaydaları əsasında düzgün oxunuşuna yiyələnir. Sonralar dini və elmiyyə hövzələrində o dövrdə tədris olunan elmlərin təhsilinə səy göstərərək bir sıra elmləri, o cümlədən, ərəb ədəbiyyatı, məntiq, fiqh, üsul və s. dərsləri yerli alim və müəllimlərin yanında öyrənməyə başlayır.

Hicri-şəmsi tarixi ilə 1298-ci ildə Ərak elmiyyə hövzəsinə gedərək, orada 2 il təhsil aldıqdan sonra Qum elmiyyə hövzəsinə yola düşür və orada məşhur alim və ustadların dərslərindən faydalanmaqla öz hövzəvi təhsilini təkmilləşdirir. O həzrət fiqh və üsul dərsləri ilə yanaşı riyaziyyat, nücum, əruz-qafiyə, fəlsəfə, İslam hikməti, qərb fəlsəfəsi, irfan elminin əməli və nəzəri sahələrinə də çox yüksək səviyyədə yiyələnmişdi. İmam Xomelii (r) öz vücudunda elm və təhsili, insani keyfiyyət və ruhani məqamlarda cəmləşdirərək bu sahədə sabit addımlar atmışdır. O ilahi insan Allah müqabilində tam mənada paklıq və xalisliklə ibadət edərək gecənin qarandıqlarında münacatla məşğul olub öz məbudu ilə raz-niyazdan xüsusi ləzzət alır və eyni halda var qüvvəsi ilə ölkənin ictimai-siyasi məsələlərini araşdıraraq tədqiq edirdi. Bütün bunlarla yanaşı elmin çox yüksək zirvələrini fəth edirək nəticədə, fiqh, üsul, fəlsəfə, irfan və əxlaq elmlərində misilsiz ustada çevrilir, təqva,

bəndəçilik, insani keyfiyyət və zöhdü isə dillər əzbəri olur. Bundan sonra elmi və dini mərcəiyyətə çevrilən İmam, öz elm və fəzilət dəryası ilə mərifət aşiqlərinin teşnə canlarını sirab etməyə başlayır və müxtəlif sahələrdə uca məqamlara yüksələn alimlər hazırlamaqla məşğul olur.

## MÜBARİZƏ VƏ CİHAD İLLƏRİ

Hicri-şəmsi tarixi ilə 1341-ci ildə Həzrəti İmam Xomeyni (r) öz aşkar mübarizəsinə başlayır. O illərdə mənfur şah rejimi Amerikanın himayəsi ilə xalqın üzərində açıq-aşkar qəddarlıq və diktatorluq edirdi. Amerika İran xalqının təbii sərvətlərini, xüsusilə də neftini tarac etməkdən əlavə, şah rejiminin hərbi qüdrətini artırmaqla qonşu dövlətləri də öz müstəmləkəsinə çevirmək istəyirdi. Burada əhəmiyyətsiz şey, təkcə İranın müsəlman xalaqı və onların insani və təbii hüquqları idi. Amerika və şah rejiminin İslam dini və Quran hökmlərinə qarşı müştərək mübarizəsi onların ən ümdə siyasəti hesab olunurdu. Ölkədə represiya hökm sürür, zülm, əxlaqsızlıq və ədalətsizlik təsəvvür olunmaz dərəcədə hər yeri bürümüşdü. Heç kəsin etiraz və ya müxalifət etməyə cürəti çatmırdı. Xalqın təhqir olunmasına, İslam və Quranın üzdəniraq şah hökuməti, eləcə də əcnəbilər tərəfindən məsxərə olunmasına dözə bilməyən İmam Xomeyni (r) öz cəddi İman Hüseyn (ə) kimi ədalət və haqq yolunda zəmanənin yezidinə qarşı qiyam və cihada başladı. Hicri-şəmsi tarixi ilə 1341-ci ildə şah rejimi İslam və Qurana qarşı və düşmənçiliyini izhar edərək «ədalət» və «vilayət» qanun layihələrindən İslam dininin rəsmi din olmasını və Qurani-Kərimə and içmə mərasimini ləğv etdi. Bu iş alim ruhanilərin, xüsusilə də Həzrət İmam Xomeyni (r)-in

şiddətli etirazına səbəb oldu. Şah üsul idarəsi ruhaniləri cəzalandırmar üçün Qum şəhərində yerləşən «Feyziyyə» və Təbriz şəhərində fəaliyyət göstərən «Talibiyyə» mədrəsəsinin dini tələbələrinə hücum hökmünu verdi və nəticədə 1342-ci il Fərvərdin ayının 2-i, Həzrət İmam Cəfər Sadiq (ə)-ın şəhadətinin il dönümündə xəfiyyəçilər dini tələbələr üçün edərək onlara odlu silahlarla divan tutdular. Bu cinayətdən sonra, İmam Xomeyni öz mübarizəsini daha da şiddətləndirdi və 1342-ci il Xordad ayının 13-də, Aşura günü xalq qarpısında alovlu və kəsərli bir nitq söyləməklə şahı və onun üsul idarəsinin cinayətlərini tənqid atəşinə tutdu, bu nitqin təsiri ilə xalq kütləl əlаrinin etiraz nümayişi hər tərəfə yayılmağa başladı. Şahın muzdurları Xordad ayının 14-ü, gecə yarı İmam Xomeyni (r)-ı həbs edib Tehran həbsxanalarına göndərdilər. Həmin günün səhəri, Xordad ayının 15-də xalq kütlələri etiraz nümayişi keçirərək Həzrət İmamın azad olunmasını tələb etdilər. Lakin vəhşi və qaniçən şah, xalqın etirazlarına cavab vermək əvəzinə, onların üzərinə hücum fərmanı verdi və bunun da nəticəsində xalq öz qanına bələndi və on beş mindən artıq adam şəhid oldu. Bir neçə aydan sonra ölkəni başdan-başa bürümüş etiraz hərəkatı şah hökumətini İmam Xomeynini azad etmək məcburiyyətində qoydu. Bu hadisədən bir müddət sonra şah rejimi «kapitalizm» layihəsini təsdiq etməklə bir daha İran xalqını Amerika qarşısında təhqir etdiyi üçün İmam Xomeyni bu hökumətini cinayətlərini ifşa edib öz müxalifətini şiddətləndirdi və 1342-ci il Aban ayının 4-də Qum şəhərində əksəriyyəti ruhanilərdən və xalq nümayəndələrindən təşkil olunmuş yığıncaqda özünün tarixi nitqini söyləyərək şah və onun əlaltılarının cinayətlərini tənqid atəşinə tutdu. Nəhayət

1342-ci il Aban ayının 12-də yenidən Tehrandan göndərilmiş silahlı dəstələr İmamın Qumdakı evini mühasirəyə aldılar və o həzrəti gecə ibadətinə məşğul olduğu halda həbs edib təhlükəsizlik qoşunlarının müşayəti ilə birbaşa Tehranın «Mehrabad» aeroportuna və oradan da bir hərbi təyyarə ilə Türkiyənin Ankara şəhərinə sürgün etdilər.

Türkiyədə on bir ay sürgündə olan İmam, oradan İraqa, Həzrət Əli ibn Əbu Talib (ə)-ın dəfn olunduğu müqəddəs Nəcəf şəhərinə gedir və orada olduğu 12 il ərzində, özünü dünyanın müxtəlif yerlərindən oraya çatdırmış inqilabçı və mübariz ruhanilərin təlim və tədrisi ilə məşğul olur. İmam Xomeyni (r) sürgündə olduğu illərdə qarşıya çıxan müxtəlif çətinliklərə baxmayaraq heç zaman öz siyasi mübarizəsindən əl çəkməyib, öz çıxış və göstərişləri ilə ürəklərdə qələbəyə ümid hissi yaratmışdı. Bu vəziyyət 1356-cı il Aban ayının əvvəlinə qədər İmamın böyük oğlu Ayətullah Hacı Mustafa Xomeyninin Nəcəf şəhərində şah xəfiyyəsinin terroristləri tərəfindən namərdcəsinə zəhərlədilib şəhid etdirilənə qədər davam etdi. Bu xəbərin İranda yayılması yenidən Hövzeyi-elmiyyələrin ayağa qalxmasının və İranın dindar xalqının qiyamının başlanğıçı oldu. Bu ümumxalq oyanışından sonra şah rejimi İmamdan intiqam almaq məqsədi ilə «İttilaat» qəzetində o həzrətin haqqında təhqiramiz bir məqalə çap etdi. Bu məqaləyə etiraz əlaməti olaraq Qum şəhərində nümayiş etmək istəyən inqilabçı tələbələr 1356-cı il Dey ayının 19-da güllələbaran edildilər. Bu şəhidlərin əza mərasiminin qırxıncı günündə qəhrəman Təbriz xalqı şah əleyhinə qanlı bir qiyam bərpa etdi və bundan sonra qiyam tədricən ölkənin hər bir yerinə yayılmağa başladı. Bütün bu müddət ərzində həzrət İmam Xomeyni (r) öz inqilabi göstərişləri ilə xalqı mətanətli

olmağa və şah üsul idarəsi devrilib İslam hökuməti qurulana qədər mübarizəni davam etdirməyə çağırırdı. Şah ümumi qırğınlara əl atmasına baxmayaraq, şölələnmiş inqilab odunu söndürməyə nail ola bilmədi.

Bu ərəfələrdə Amerikada təşkil olunmuş İran və İraq xarici işlər nazirlərinin görüşündə həzrət İmamın İraq torpağından ixrac olunmaq məsələsi qərara alındı. Buna görə də İmam Xomeyni (r) 1357-ci il Mehr ayının 12-də Livan ya Suriyaya getmək məqsədilə müqəddəs Nəcəf şəhərini tərk edərək Küveyt sərhəddinə gəldi. Lakin İran şahı ilə Küveyt krallığı arasında aparılan gizli danışıqlar nəticəsində onlar, Həzrət İmama Küveyt ərazisinə daxil olmağa icazə vermədilər. İmam öz oğlu Höccətül-islam Hacı Seyyid Əhməd Xomeyni ilə məşvərət etdikdən sonra Parisə mühacirət etmək qərarına gəlir və Mehr ayının 14-də Parisə daxil olub Nufelluşato qəsəbəsində yaşayan iranlılardan birinin evində məskunlaşır. İmam Parisdə qaldığı dörd ay ərzində də İranda başlayan xalq hərəkatına rəhbərlik edir və hərəkatın ən böhranlı mərhələlərini oradan istiqamətləndirirdi. İranda inqilabın gün-gündən artmasını görən xain şah, minlərlə günahsız insanı al qanına xarman etmiş və bütün bu səylərin nəticəsiz olduğunu anlayıb 1357-ci il Dey ayının 26-da ölkədən qaçaraq hakimiyyəti qərbin sadiq muzduru olan baş nazir Bəxtiyara tapşırdı.

Bəhmən ayının əvvəllərində həzrət İmam İrana getmək fikrində olduğunu bildirdi. Bu xəbər xalqın ruhiyyəsini yüz qat artırdı və inqilabın alovlarını daha da şölələndirdi. Düşmənin İmamı İrana gətirən təyyarəni partlatmaq təhdidinə baxmayaraq o həzrət bu həlledici və qorxulu günlərdə öz xalqı ilə birgə olmaq məqsədini elan etdi. Buna görə də İmam tam

cürətlə və heç bir şəkildə tərəddüd etmədən 1357-ci il Bəhmən ayının 12-də on dörd il ayrılıqdan sonra öz doğma vətəninə daxil oldu. Dünyada misli görünməyən bir qarşılama mərasimində milyonlarla aşiq öz məşuqinin görüşünə gəlmişdi. İmamın ölkəyə daxil olması ilə inqilabi ruhiyyə özünün ən yüksək zirvəsinə çatmışdı. Nəhayət bu hadisədən 10 gün sonra azadlıq günəşi doğdu və 1357-ci il Bəhmən ayının 12-də mənfur şah rejimi tamamilə devrildi və on minlərlə şəhid və yaralıların qanı bahasına İslam İnqilabı qələbə çaldı. Bir neçə ay sonra, yəni 1358-ci il Fərvərdin ayının 12-də Həzrət İmamın göstərişinə əsasən, xalqın öz rəyi ili ürəkləri istəyən hökumət quruluşunu təyin etməsi üçün ölkənin başdan-başında ümumxalq referendomu keçirildi. Xalq bu seçkidə iştirak etməklə 98% rəylə İslam respublikası hökumətinin təşkil olunmasına səs verdilər. İran xalqının neçəminillik şah səltənətinə son qoyaraq İmam Xomeyni (r)-ın ilahi rəhbərliyi ilə İran İslam respublikası quruluşunu təşkil etmək qərarı o qədər fikir və əməl yekdilliyi ilə həyata keçdi ki, hətta bütün dünyada bu hərəkətə nəzarət edənləri və eləcə də siyasi təhlilçiləri heyrət və təəccübdə qoydu. İran, İslam dininin haqq və ədalət səsini dünya xalqlarına yayan, hegemonların onlar üçün yaratdıqları zülm-sitəm, pozğunluq və monarxiyadan azad edən bir dayaq nöqtəsinə çevrildi. Bu inqilab baş verdikdən sonra Amerika və onun əlaltılarının bu müqəddəs quruluşa zərbə vurmaq məqsədi ilə apardıqları siyasi, iqtisadi, hərbi, təbliğati və sairə fəaliyyətlər, həmçinin onların təhriki ilə qəsbkar İraq dövlətinin qəbul etdirdiyi, minlərlə qeyri-insani cinayətlərlə nəticələnən 8 illik müharibə və hələ də davam edən iqtisadi mühasirəyə, yaradılmış bütün bu problemlərə baxmayaraq, İmam Xomeyni (r) İranın

sülhsevər xalqının köməyi ilə bu İslam inqilabını və onun hökumətini müdafiə etdi, düşmənin çox yüksək məharətlə hazırladığı məkrli planları nakam qoydu, İslam dininin və musəlman xalqların əzamət və vüqarı üçün əlindən gələni əsirgəmədi, İslamın düşmənlərini məğlub və rusvay etməklə ədalət və haqq yoluna başıucalıq və əzəmət bəxş etdi.

## İMAM XOMEYNİ (R)-IN ÇOXSAHƏLİ ŞƏXSİYƏTİ

Həzrət İmam Xomeyni (r) müxtəlif cəhətlərə malik olan hərtərəfli və misilsiz bir şəxsiyyət idi. O həzrtin şəxsiyyətində duyulan çoxsahəlik və ictimailik onun düşüncə və təfəkkür məktəbinin təzahürüdür ki, yaratdığı qiyam və İslam intilabını bir ölkə daxilində baş verən ictimai-siyasi dəyişiklik məhdudəsindən çıxararaq daha yüksək üfüqlərə aparır və ona tam başqa bir fenomen bəxş edir.

İmamın ilk xüsusiyyəti onun özəl düşuncə tərzi və həyat və mübarizə yolunda təlim-tərbiyə, mənəviyyat və insani keyfiyyətlərin hər şeydən üstün tutulması nisani idi. O ulu şəxsiyyətin ürəklər fəth etməsi və qəlblərdə məhəbbət rəmzinə çevrilməsi, ilk növbədə onun mənəvi xislətlərindən qaynaqlanırdı. İmam sözün əsil mənasında arif idi, özünü Allah-Təalanın müqəddəs vücudunda fəna nöqtəsinə ucaldıb, bütün «mən»liyini əridərək mələk simasını «haqq» nurunu əks etdirən şəffaf aynaya çevirmişdi.

Uşaqlıq illərindən həyatının sonunadək paklıq və təqva cəhətindən ərini heç bir şey qonmayan dupduru bulaq kimi idi. Heç bir zaman dünyanın gözqamaşdıran nemətlirinə bağlı olmadı və bərəkətli ömrünü ən sadə insanlara məxsus olan bir

tərzdə başa vurdu. Son dərəcə atifə və ülvi duyğulara malik idi. Lətif ruhu, kövrək ürəyi var idi, hamıya qarşı çox mülayim rəftar edərdi, Allah və Onun bəndələrinə qarşı daimə çağlayan məhəbbət bulağı idi. Mehriban ata kimi bütün insanlar üçün səadət və xoşbəxtlik arzu edər və onların xeyirxahlığı yolunda bir zəhmətə qatlaşardı. Elmi cəhətdən, fəqihlikdə kəsb etdiyi çox yüksək məqamdan əlavə, fəlsəfə hikmət və irfan elmlərində də dünyada misli olmayan ustad sayılırdı. Siyasi çəhətdən isə çox yüksək dünyagörüşü, dəqiq və dərin olan siyasi təhlilə malik idi. Haqq və batili bir-birindən özünəməxsus bir tərzdə ayırar, ədalət yolunda vəsfolunmaz şücaətlə müqavimət göstərər, zülmlə barışmaz və bütün bəşəriyyət üçün, xüsusilə də müsəlmanlar üçün azadlıq arzulayardı. İmam Xomeyni (r) 12 imamçı şiə idi və Allah-Təalaya tükənməz iman və etiqadla bağlanmışdı. İnsanları və bütün dünyanı Allahın məxluqu hesab edir, nicat və səadət yolunu yalnız Ona ibadət və bəndəçilikdə görürdü. İslam dinini və müqəddəs kitab olan Qurani-məcidi Allah-Təalanın insanların hidayət olunması üçün göndərdiyi ən kamil din və məktəb hesab edirdi. «Dinin siyasətdən ayrı olması» ideyasını düşmənlərin müsəlmanları istismar etmək məqsədi ilə yeritdiyi məkrli siyasət hesab edir və bütün müsəlmanları İslam və Quran hakimiyyəti uğrunda mübarizə aparmağa çağırırdı. İslam dünyasının əzəmət və vüqarı üçün hər millət, rəng, irq və məzhəbdən olan müsəlmanları «La ilahə illallah» bayrağı altında birləşib öz vəhdətlərini yaratmağa dəvət edirdi.

İctimai ədalətin yaranmasını şəriətin vacib hökmü hesab edir və hər bir şəkildə aparılan ədalətsizlik və ayrıseçkiliyə qarşı barışmaz mövqedə idi. Həmişə millətə etimad bəsləyərdi

və bu əqidədə idi ki, xalq gərək azad olsun, öz yolunu müstəqil şəkildə təyin etsin və millətin ictimai rəyi əsas meyar sayılsın. Qadınlara tam insani hüquqlar verilməsinin tərəfdarı idi və bu mənada kişi qadınlar arasında heç bir fərq görmürdü. Hegemon qüdrətlərə və müsəlmanların düşməni olan beynəlxalq sionist təşkilatına qarşı mübarizə aparır, Amerikanı İslam və müsəlmanların əsas və qəddar düşməni hesab edir və onu «böyük şeytan» adlandırırdı. Müsəlmanların vüqar və azadlıq yolunu, təkcə onların vəhdətində, həmçinin Amerika və İsrail kimi dünya jandarmalığına can atan qəsbkaraların qarşısında səbr və mətanətlə mübarizə aparmaqda görürdü. Dünyanın məzlum kütlələrini qaniçən istismarçıların boyunduruğundan xilas etmək, zor, yalan, hiylə üzərində qurulan hakimiyyətləri ədalət məntiq və ağıl hökumətləri ilə əvəz etmək o həzrətin daimə qəlbində yaşatdığı arzulardan idi. Bütün məzlum və məhrumlarla həmdərd, dünyanın zəif təbəqələrinin qəminə şərik idi. Dediklərinin hər birinə hamıdan qabaq özü əməl edərdi. Öz əqidə və imanı yolunda mətin insan, Allaha itaətində isə saleh bir bəndə idi, bütün varlığını Qurana, İslama və millətə həsr etmişdi. Düşmənlər o ulu rəhbərin haqqında namərdcəsinə əks təbliğat aparmaqda hədlərini aşıblar. İstismarçı qüvvələr, başda Amerika olmaqla qərbin kütləvi təbliğat vasitələri həzrəti İmam Xomeyni (r)-ın haqqında daha doğrusu ümumilikdə bəşəriyyətə çox böyük zülm və xəyanət edərək, uzun illərdir ki, geniş təbliğat aparmaqla o həsrətin ilahi şəxsiyyətini hörmətdən salmağa çalışır, həqiqətləri tərif edərək onun dünyanın hər bir tərəfinə nüfuz etmiş ümumislam hərəkatına fündamentalizm, terrorizm, fanatizm və başqa mənfi adlar verir, vəfatından illər

keçməsinə baxmayaraq yenə də o peyğəmbərsima bir vücuddan əl çəkmirlər. Biz inanırıq ki, həqiqət günəşi yalan və iftiralardan düzəlmiş qara buludları yaracaq, dünya xalqları Həzrəti İmam Xomeyni (r)-ın təmiz həyatı və onun insansevər, sülhsevər çağırışları ilə tanış olacaq və onun yolunu gedənlər qovuşaçaqlar.

## İMAMIN VƏFATI

Nəhayət bütün dünyada milyonlarla azad insanın məşuqinə çevrilmiş bu ilahi şəxsiyyətin ruhu Hicri-şəmsi tarixi ilə 1368-ci il Xordad ayının 14-da (miladi 3 iyun 1989 il), 87 yaşında tam xatircəmlik və ruhi aramlıqla Quran tilavət etdiyi halda Mələkut aləminə pərvaz etdi və vəfatı ilə ürəklərə sağalmaz bir yara vurdu. Bəli, onun mübarək cismi bizim aramızdan getdi, amma adı, çağırış və göstərişləri ürəklərdə əbədi olaraq yadigar qaldı.

Mövti cismanim ilə sanma mənim ölməyimi
Seyyida, ölmərəm aləmdə səsim var mənim!

Necə ki, inqilabın böyük rəhbəri həzrəti Ayətullah Xamenei buyurub: Onun yolu bizim yolumuz, onun hədəfi bizim hədəfimizdir. İmam Xomeyni həmişəyaşar bir həqiqətdir!

İLAHİ, İMAMIN MÜQƏDDƏS RUHUNU BİZLƏRƏ
DUAÇI ET! AMİN!

# MÜNDƏRİCAT

Uşaqlıq və cavanlıq illəri ........................................ 3
Mübarizə və cihad illəri ........................................ 5
İmam Xomeyni (r)-in çoxsahəli şəxsiyəti .......................... 10
İmamin vəfatı .................................................. 13

# İmam Xomeyni həmişəyaşar bir həqiqətdir!

# Onun yolu bizim yolumuz, onun hədəfi bizim hədəfimizdir.

Ayətullahül-üzma seyyid Əli Xamenei

Hazırlayan: Azərbaycan mədəniyyət mərkəzi - Qum